**Taksofonlardan internetə daxil ola bilərsiniz**

Artıq elektron taksofonlarda nağdsız ödəniş də mümkündür...

Paytaxtda yeni elektron taksofonların quraşdırılması prosesi davam edir. Bu taksofonlardan, danışıq vasitəsilə yanaşı, digər xidmətlər üçün də istifadə etmək mümkündür. Bakı Telefon Rabitəsi İstehsalat Birliyindən əldə etdiyimiz məlumata görə, hazırda Bakı şəhəri ərazisində 60 yeni taksofon quraşdırılıb. Birliyin baş direktor müavini Xankişi Kişiyev «Vergilər»ə müsahibəsində bildirmişdir ki, yeni taksofonlar istifadəçilər üçün həm danışıq, həm də digər xidmətləri həyata keçirmək baxımından çox sərfəlidir. Belə ki, iyun ayının 1-dən başlayaraq taksofonlardan mobil telefonlara edilən zənglərin qiyməti endirilərək bir dəqiqəsi 10 qəpik müəyyənləşib.
Hazırda köhnə taksofonların istismardan çıxarıldığını deyən X. Kişiyev yeni taksofonlar vasitəsilə internetə, eləcə də «Skype»a qoşulmaq mümkün olduğunu bildirmişdir. Bundan başqa, taksofonlardan «Bluetooth»" vasitəsilə mobil telefona foto və musiqi yükləmək də mümkündür. Veb-taksofonlarda onlayn oyun və informasiya bölmələri də var. Menyu isə Azərbaycan və ingilis dillərindədir. Bu aparatlar vasitəsilə internetə qoşulmanın 1 dəqiqəsi 2, «Bluetooth»dan bir dəfə istifadə isə 20 qəpikdir. Şəhərdaxili zənglərin 1 dəqiqəsi 3, ölkədaxili danışıqların 1 dəqiqəsi isə 7 qəpikdir. Türkiyə, İran və Pakistana zənglərin 1 dəqiqəsi 45, MDB və Baltikyanı ölkələrə 36, Avropa ölkələri və Amerikaya isə 54 qəpik təşkil edir.
X.Kişiyevin sözlərinə görə, yeni taksofonlarda internetdən istifadə etməklə kommunal xidmətləri də ödəmək mümkündür. Taksofonun haqqının ödənilməsinə gəlincə isə müsahibimiz bildirib ki, bunu qəpik pullar və ya kart vasitəsilə ödəmək daha sərfəlidir. Kağız pulla ödəmə zamanı isə müəyyən problemlər ortaya çıxa bilər. Belə ki, ödəniş kağız pulla həyata keçirilərkən qalıq geri qaytarılmır. Bu baxımdan, insanlar ya kart vasitəsilə, yaxud da qəpik pullardan istifadə etməklə ödəmə həyata keçirə bilərlər".
Müasir dövrdə mobil telefonu olmayan adamın az tapıldığı bir vaxtda taksofonların mövcudluğunun nə dərəcədə aktual olduğuna gəlincə, müsahibimiz bildirdi ki, taksofonlar universal bir xidmətdir və bu xidmətdən hər bir ölkədə istifadə edilir. Taksofonlardan istifadənin daha sərfəli olduğunu deyən X.Kişiyevin sözlərinə görə, şəhər telefonlarından mobil telefona zəng etmək daha baha başa gəlir: dəqiqəsi 29 qəpik. Həmçinin, bu xidmətdən istifadə etməklə elektron poçta baxmaq, skaypla danışmaq, yükləmələr həyata keçirmək də mümkündür. O baxımdan da taksofonlardan istifadə vətəndaşlar üçün çox əhəmiyyətli olacaq".
Baş direktor müavininin sözlərinə görə, taksofonların üzərində istifadə qaydaları, ölkələrin və rayonların kodları, digər köməkçi məlumatlar və s. mövcuddur.

AYTƏN